COM/ENR/REC/001/FINAL

**DÖRDÜNCÜ İCLAS**

*14 Sentyabr 2018, Bişkek*

# "GENETİK MODİFİKASİYA OLUNMUŞ ORQANİZMLƏR - GENETİK MODİFİKASİYA OLUNMUŞ ORQANİZMLƏRİN YAYILMASININ TƏSİRİ"

Parlament Assambleyası**:**

Dünya ərzaq probleminin həll edilməsində GMO və GMO tərkibli məhsulların mühüm rol oynadığını ***hesab edərək***;

GMO məhsullarının insan sağlamlığı, biomüxtəliflik və ətraf mühit üzərində mənfi təsiri barədə narahatlığı ***nəzərə alaraq;***

GMO məhsullarının transsərhəd hərəkətini tənzimləyən Biotəhlükəsizlik üzrə Kartagena Protokolunu qəbul etmiş Bioloji Müxtəliflik Konvensiyasını (BMK) ***qeyd edərək***;

GMO üzrə TÜRKPA üzv ölkələrində keçirilən seminar, forum və digər tədbirləri ***dəstəkləyərək;***

TÜRKPA tərəfindən 16-18 aprel 2018-ci il tarixləri arasında Türkiyə Böyük Millət Məclisi (TBMM) dəstəyi ilə İstanbulda təşkil edilən "Genetik Modifikasiya olunmuş Orqanizmlərə (GMO) dair Seminar"-ın əhəmiyyətini ***vurğulayaraq*;**

Tərkibində GMO olan məhsulların becərilməsi, istehsalı, idxalı və satışına nəzarət etmək məqsədi ilə TÜRKPA üzv ölkələri arasında əməkdaşlığa ehtiyac olduğundan ***xəbərdar olaraq*,**



Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

TÜRKPA üzv ölkələrinin milli parlament və hökumətlərinə *tövsiyə edir:*

*a)* biotexnologiyanı kənd təsərrüfatı inkişaf strategiyasının ayrılmaz amili kimi *tanımaq;*

*b)* biomüxtəliflik və biotəhlükəsizlik üzrə səyləri *gücləndirmək və əlaqələndirmək;*

*c)* möhkəm, elmi əsaslı və şəffaf biotəhlükəsizlik tənzimləmə sistemlərinin *qəbul edilməsi;*

*d)* müəyyən olunmuş ətraf mühit və insan təhlükəsizliyi üzrə GMO ilə bağlı tədbirlər üçün tənzimləyici normaların *sadələşdirilməsi;*

*e)* ehtiyac olduğu təqdirdə biotəhlükəsizliklə bağlı siyasətlərin müxtəlif milli səlahiyyətli orqanlarla *razılaşdırılması*;

f) biotəhlükəsizlik məsələləri ilə bağlı, xüsusilə, yerli əhəmiyyətə malik araşdırma məlumatlarının *yaradılması,* məsələn, biomüxtəlifliyə təsiri;

g) kənd təsərrüfatı və biotexnologiya yönümlü kursların məktəb tədris planlarına *daxil edilməsi* və müvafiq tədris metodlarının *inkişaf etdirilməsi;*

h) yalnız biotexnologiya sahəsində deyil, eləcə də ona bağlı elmlərdə alimlərin və kommunikasiya qabiliyyətlərinin *yetişdirilməsi;*

i) biotexnologiya və biotəhlükəsizlikdə inkişaf üzrə uğurların, statistika hesabatlarının və veb əsaslı informasiya sistemlərinin *inkişaf etdirilməsi;*

j) alimlər, qurumların təhlükəsizlik üzrə məsul əməkdaşları, fermer təşkilatları və istehlakçı qruplar arasında dialoqun *təşkil edilməsi*;

k) regional/sub-regional səviyyədə GMO risk qiymətləndirilməsi risklərin idarə olunması protokollarında *əməkdaşlıq və uyğunlaşdırılması;*

l) biotexnologiya, biotəhlükəsizlik və intellektual mülkiyyət məsələlərində inkişaf üzrə regional/sub-regional məlumat mərkəzlərinin *yaradılması;*

*m)* davamlı imkanların inkişaf etdirilməsi üçün bəzi mövcud milli qurumların regional qovşaq kimi xidmət etməsi məqsədilə *gücləndirilməsi;*

*n)* məsələ üzrə üzv ölkələr arasında səmərəli regional və ikitərəfli əməkdaşlığın genişləndirilməsinə istiqamətlənmiş *tədbirlərin görülməsi;*

o) GMO sahəsində TÜRKPA üzv ölkələri arasında əməkdaşlığın prioritetlərinin *müəyyənləşdirilməsi;*